*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Potika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 65-69* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-2926.2024.2.65*

# Azərbaycan poeziyasında aşiq obrazı

**Əkrəm Həsənov**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail: garibekrem@hotmail.com

**Annotasiya.** Şəxsiyyət azadlığı problemi klassik Azərbaycan poeziyasında ən mühüm və ən aparıcı problemlərdən biri olmuşdur. Lirik şeirlərdə Aşiqin kədəri, nisgilli, romantik duyğuları, Cananın – Məşuqun gözəlliyinə pərəstiş, məhəbbətə ilahi bir qüvvənin təcəssümü kimi heyrət etmək – bu təkcə Füzulidə deyil, bütün klassik şairlərimizin lirikasından qırmızı bir xətlə keçir. Lakin Aşiq obrazını təkcə məhəbbət və eşqin tərənnümü ilə məhdudlaşdırmaq olmaz. Klassik Aşiq obrazının başqa bir tipi də Aşiq-Filosofdur. Əgər Aşiq-Məcnunluq insan hisslərinin aliliyini təsdiq edirsə, Aşiqin Filosof tipi ağlın qüdrətini nümayiş etdirir. Bunu biz Nəsimi ilə Füzuli lirikasının Aşiq obrazlarını müqayisədə daha aydın görə bilərik. Maraqlıdır ki, poeziyamızda qəzəllərin əksəriyyəti gözələ müraciətlə başlayır, gözəl mədh və idealizə edilir. Amma lirik qəhrəmanın məhəbbətə və gözələ münasibəti ayrı-ayrı şeirlərdə bir qədər fərqli xüsusiyyət daşıyır.
Məqalədə Azərbaycan poeziyasında Aşiq obrazı və onun müxtəlif amplualarda təqdimi araşdırılmışdır. Tədqiqat zamanı tarixi-müqayisəli və müqayisəli analitik metoddan istifadə edilmişdir.
**Açar sözlər:** şair, aşiq, obraz, məşuqə, təqdimat, bədiilik

**Məqalə tarixçəsi:** göndərilib – 25.09.2024; qəbul edilib – 04.10.2024

# Character of lover in Azerbaijani poetry

**Akram Hasanov**
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
Doctor of Philosophy in Theology, Associate Professor
E-mail: garibekrem@hotmail.com

**Abstract.** The problem of personal freedom has become one of the most important and leading problems in classical Azerbaijani poetry. In the lyrical poems, the Lover's sadness, intimate, romantic feelings, adoration of the beauty of the Beloved, admiration for love as the embodiment of a divine power - this is not only in Fuzuli, but it is a red line in the lyrics of all our classical poets. However, the image of Lover cannot be limited only with praise of love and affection. Another type of classic Lover image is the Lover-Philosopher. If the Infatuation confirms the supremacy of human feelings, the Philosopher type of the Lover demonstrates the power of the mind. We can see this more clearly by comparing Nasimi's and Fuzuli's lyrics of Ashig. It is interesting that most of the ghazals in our poetry begin with an appeal to beauty, and beauty is

praised and idealized. However, the attitude of the lyrical hero to love and beauty is somewhat different in individual poems.
The article examines the image of a Lover in Azerbaijani poetry and its presentation in various roles. A historical-comparative and comparative analytical method was used during the research.
**Keywords:** poet, lover, image, beloved, presentation, artistry

**Article history:** received – 25.09.2024; accepted − 04.10.2024

## Giriş / *Introduction*

Klassik Azərbaycan poeziyasında sevgi lirikasının öncüllüyü, aparıcı istiqamət təşkil etməsi bir sıra ədəbi-estetik uğurların reallığını da şərtləndirmişdir. Akademik Məmməd Cəfər yazır: "Füzulinin əsərlərində eşq sözünün müxtəlif mənalarda işləndiyi, müxtəlif fikirlər ifadə etdiyi şübhəsizdir. Şair sözün geniş mənasında, öz həyat eşqini, həyata, dünyaya bağlılıq ideyalarını, səadət arzularını, şəxsiyyət, vicdan, sevgi azadlığı ideyalarını ifadə edərkən çox yerdə məhəbbət lirikasına müraciət edir, təbii, bəşəri eşqdən danışır" [2, s.33-34].

## Əsas hissə / *Main part*

Bu fikri klassik poeziyamızın bütün sonrakı mərhələlərinə də aid etmək olar. Məsələn, XVII-XVIII əsrlər anadilli Azərbaycan lirikasını bu baxımdan xüsusilə fərqləndirmək lazımdır. Filologiya elmləri doktoru Paşa Kərimovun bir fikri ilə qeydsiz-şərtsiz razılaşırıq. O yazır: "Əvvəlki dövrlər klassik şeirimizdə olduğu kimi, XVII əsr anadilli lirikamızda da lirik qəhrəman – aşiq sadəcə bir gözəlin vüsalının həsrətini çəkməklə kifayətlənmir, o, insan qarşısına çıxan bütün problemlər haqqında düşünən, həyatda gördüyü haqsızlıqlara qarşı çıxış edən mütəfəkkirdir, cəmiyyətin bütün təbəqələrinə düzgün yol göstərən didaktikdir, həyat, kainat, keçmiş, gələcək barədə fikir yürüdən filosofdur" [3, s.111-112].

Paşa Kərimov fikirlərini isbatlamaq üçün XVII əsr şairi Qövsi Təbrizinin şeirlərinə müraciət edir. Biz də Paşa müəllimin özünün nəşrə hazırladığı Qövsi Təbrizinin "Divan"ına üz tuturuq:

*Eşqində gər yüz il yanar olsam ki, yanmanam,*
*Ey qəmküsar, usansa qəmin, mən usanmanam.*
*Ey bir zəman dilində məni yad qılmayan,*
*Hansı nəfəs ki, mən səni könlümdə anmanam.* [4, s.281]

Bu qəzəldə eşq yolunda usanmaq bilməyən Aşiqin etirafları səslənir. Aşiqliyin doğru yol, Aşiqin isə hünər sahibi olduğunu, hətta eşq yolunda şəhidliyini də qəbul etdiyi nəzərə çarpdırılır. Ümumiyyətlə, Qövsinin qəzəllərində eşq yolu dünyanın var-yoxundan, mal-dövlətindən üstün sayılır. Qövsinin başqa bir qəzəlinə müraciət edək:

*Qədrini bildim sənin, ey dil, nisa etdim səni,*
*Aləmin varü-yoxundan ixtiyar etdim səni.*
*Səndə yandırdım, könül, öz mətləbincə dağlar,*
*Ey zəmini-sadə, axır laləzar etdim səni.* [4, s.393]

Ümumiyyətlə, Şərq və Azərbaycan lirik poeziyası bir sıra xarakterik xüsusiyyətləri ilə seçilmiş, xüsusilə, məhəbbət poeziyasında ictimai-siyasi, fəlsəfi motivlərə də müraciət etmişdir. Paşa Kərimov klassik ədəbiyyatımızda dünyəvi və təsəvvüfi eşqin mühüm, hətta bəzi məqamlarda

aparıcı rol oynadığını qeyd edir. Yazır ki: "Şübhəsiz ki, Xaqani, Nizami, Sədi, Hafiz, Füzuli kimi qüdrətli sənətkarlar da bu məsələdə mühüm rol oynamışlar. İrfan şairləri iki qütbü (dünyəvi və ilahi) olan eşq anlayışına böyük önəm vermişlər, çünki onlara görə, bütün kainatın varlığı, həyat eşq cazibəsi sayəsində təmin edilir, surətdən mənaya, zahirdən batinə yüksəliş yalnız eşq ilə mümkündür. İnsanın istər dünyəvi, istərsə də mənəvi-ruhani həyatı da eşqlə bağlıdır. Bu eşq iki mərhələdə nəzərdən keçirilir. Birinci mərhələdə məcazi eşq hiss aləmindən kənara çıxmır. İkinci mərhələdə məcazi, dünyəvi eşq həqiqi eşqə, Tanrıya olan eşqə keçir. Bu keçid öz "mən"indən yüksəkdə dayana bilmək, mənəvi kamillik, Haqqa doğru yüksəlməkdir" [3, s.118]. Əlbəttə, poeziyada ürfani, təsəvvüfi motivlərin olması Azərbaycan şairlərinin Tanrıya, ilahiyə inamından, məhəbbətindən doğurdu.

XVII-XVIII əsrlər Azərbaycan poeziyasının ən böyük uğurları real, gerçək həyatın get-gedə şeirdə aparıcı mövzulara önəm verməsi idi. Bunun Qövsi Təbrizi, Saib Təbrizi, Məsihi, Əmani, Vidadi və Vaqifin lirikasında daha parlaq şəkildə ifadə edildiyini görərik. Folklorun yazılı ədəbiyyata təsiri, dastan yaradıcılığının ("Koroğlu", "Abbas və Gülgəz", "Şəhriyar və Sənubər", "Valeh və Zərnigar", "Novruz və Qəndab") ərsəyə gəlməsi, ustad aşıqların (Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Valeh, Aşıq Əzizi, Dəllək Murad, Ağ Aşıq) təkcə Azərbaycanda deyil, bütün Qafqazda tanınması xalq ədəbiyyatının daha geniş yayılmasını sübut edirdi. Təbii ki, folklorun, xalq ədəbiyyatının yazılı ədəbiyyatın inkişaf spesifikasına, bədii dinamikasına təsiri özünü şəkil-forma, obraz, süjet, ideya-məzmun, dil-üslub əlamətlərində də göstərirdi. Filologiya elmləri doktoru Yaqub Babayev yazır: "Həmin əsrdə Vaqif və Vidadi başda olmaqla dövrün, demək olar ki, əksər şöhrətli sənətkarları öz yaradıcılıqlarında bu və ya digər dərəcədə heca vəznli şeir şəkillərinə müraciət edirlər. …Diqqətəlayiqdir ki, fikrin bədii ifadəsində, xüsusilə də, məhəbbət və gözəlliyin təsvir və tərənnümündə əvvəlki əsrlərdə daim birinciliyi hifz edən qəzəl janrı öz yerini qoşmaya (folklor janrına!) güzəştə getməli olmuşdu. Daha doğrusu, qəzəl öz orijinallığını, əvvəlki təravət və təsirini, oxucu zövqünü oxşamaq funksiyasını nəzərəçarpacaq dərəcədə itirmiş, bu mənada qoşma onu üstələmiş, ilkinlik qazanmışdı" [1, s.503].

Əlbəttə, burada "qəzəl öz orijinallığını, əvvəlki təravət və təsirini, oxucu zövqünü oxşamaq funksiyasını nəzərəçarpacaq dərəcədə itirmiş, bu mənada qoşma onu üstələmiş, ilkinlik qazanmışdı" fikri bir qədər mübahisəlidir. Çünki XVII-XVIII əsrlərin poeziyasında Füzuli təsiri hələ öz gücünü itirməmişdi. Məsələn, XVIII əsrin Füzulisi sayılan Saib Təbrizi poeziyada klassik şeirimizi forma və məzmunca zənginləşdirir, yeni bir ədəbi məktəb yaradırdı. Ağa Məsih Şirvani, Şakir Şirvani, Məsihi, Qövsi Təbrizi, Məhcur Şirvani qəzəl yaradıcılığında Füzuli yolunu davam etdirirdilər. Elə Vaqif və Vidadi də qoşma ilə yanaşı, qəzəl də yazırdılar. Burada sadəcə olaraq aşıq şeirinin, xalq poeziyasının yeni dönəmdə dirçəliş dövründən söz açmaq olar. Təbii ki, Azərbaycan ədəbi dili öz ifadə imkanlarını, bədii təsvir vasitələrini, üslub rəngarəngliyini üzə çıxarırdı.

*Kaman qaş altında, al yanaq üstə*
*Nə xoş xumarlanır məstanə gözlər.*
*Sürməli kirpikdən oxlar çəkilib*
*Eyləyir bağrımı nişanə gözlər.* [5, s.102]

Molla Pənah Vaqifin bu qoşmasına diqqət yetirdikdə xeyli sözlərin, ifadələrin qəzəllərdə də işləndiyinin şahidi olarıq. Sadəcə olaraq, bu şeirdə heca vəzni əruzdan, qəzəldən fərqli olaraq poetik ruhca yenidir. Paşa Kərimov haqlı olaraq yazır ki: "Lirik poeziyanın yeni, realist istiqamətdə inkişaf etməsində, klassik ədəbiyyatın kanonlarının, ənənəvi obraz-üslub sisteminin pozulmasında, fərdi üslub konsepsiyasının bərqərar olmasında həyat hadisələrini, insan hisslərini

daha hərtərəfli əks etdirməyə imkan verən, aşıq şeirinin ən universal və çevik janrı qoşmanın rolu böyük olmuşdur” [3, s.201].

XVII-XVIII əsrlərdə xalq poeziyasının (qoşmanın, gəraylının, təcnisin, bayatının) populyarlaşması XIX-XX əsrlərdə də şairlərin bu şeir növlərinə tez-tez müraciət etməsinə səbəb oldu. Çünki qoşma da, gəraylı da elə şeir növləridir ki, heç bir vaxt onların bədii imkanları tükənmir. Özlüyündə qəzəl də, qoşma da məlum poetexniki standartlara, sxemlərə tabedirlər, lakin qoşmada qəzəllə müqayisədə sanki bir asudəlik nəzərə çarpır. Təbii ki, qəzəldə olduğu kimi, qoşmada da ənənəyə forma baxımından bağlılıq mühafizə olunur. Lakin məzmunca, tutaq ki, XX əsrin qoşması ilə Qurbani, Abbas Tufarqanlı, Vaqif, Vidadi, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı qoşmaları eyni deyillər. Bədii təfəkkür tərzinin yeniliyi, poetik ustalıq səviyyəsi yeni yaranan qoşmaları klassik nümunələrdən fərqləndirir. Səməd Vurğunun Aşıq Şəmşirə həsr etdiyi “yada sal məni” qoşmasını nümunə gətirək.

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə,*
*Kəklikli daşlardan xəbər al məni.*
*Ceyran bulağından qızlar içəndə*
*Saz tutub, söz qoşub, yada sal məni.* [7, s.229]

Bu qoşma XX əsr Azərbaycan poeziyasında yeni poetik təfəkkür tərzini ifadə edən bir nümunədir. Əvvəla, şair qoşmanın bütün poetexniki elementlərinə riayət etmişdir. İkincisi, burada ayrılığı, gələcək ölüm qorxusunu nikbinliklə qarşılamaq əhval-ruhiyyəsi duyulur. “Kəklikli daşlar”, “ceyran bulağı”, “gözəllər oylağı göy yaylaqlar” – bu ifadələr təzədir. Və ən başlıcası, Səməd Vurğunun bu qoşması yüksək şeir mədəniyyətini özündə əks etdirir.

Qoşma ilə yanaşı, gəraylı forması da öz poetik sanbalını itirməmişdir. XX əsr Azərbaycan poeziyası zəngin gəraylı nümunələri ilə diqqəti cəlb edir. Səməd Vurğun, Hüseyn Arif, Hüseyn Kürdoğlu, Məmməd Aslan və Ramiz Rövşənin gəraylı formasında yazdığı şeirləri təkcə öz forma gözəlliyi ilə deyil, məzmunu ilə də maraq doğurur.

*Şirin-şirin yuxudaydıq,*
*Bir zalım oyatdı bizi.*
*Anaların qucağından*
*Bu dünyaya atdı bizi.*
*Düşdük yolların ağına,*
*Vaxtımızın sorağına,*
*Qatdı bizi qabağına,*
*Əlində oynatdı bizi.* [6, s.99]

Ramiz Rövşənin bu gəraylısı forma baxımından XVII-XVIII əsrlərin gəraylılarından seçilmir, lakin məzmunca yenidir. Bu gəraylı insanın keçdiyi ömür yolunu səciyyələndirir.

## Nəticə / *Conclusion*

Beləliklə, orta əsrlər Azərbaycan poeziyası ilk növbədə, öz humanist ideyaları, insana, həyata məhəbbət, bəsirət gözü ilə baxmaq nöqteyi-nəzərindən seçilir. Klassik Azərbaycan poeziyası həm ideya-məzmun, həm də forma-sənətkarlıq baxımından çoxcəhətli və rəngarəng, üslubca da müxtəlifliyi ilə diqqəti cəlb edən bir poeziya olmuşdur. Onun bütün komponentlərini bir araya gətirən isə Divan ədəbiyyatıdır. Şərq şeirində aparıcı rol oynayan Divan ədəbiyyatı Azərbaycan ədəbiyyatı üçün də səciyyəvidir. Divan ədəbiyyatının da öz kanonları və

qanunauyğunluqları var. Ədəbi-estetik uğurlara gəldikdə isə Azərbaycan poeziyasının klassik dövrü eşq-məhəbbət fəlsəfəsinin bədii təcəssümü ilə bağlı olmuşdur. Bütün klassik poeziyada Aşiq obrazı şairin təkcə məhəbbət, eşq duyğularını deyil, ictimai-siyasi, fəlsəfi görüşlərini, həyata, gözəlliyə münasibətini ifadə etmişdir. Klassik poeziya xalq poeziyası ilə müvazi, paralel inkişaf etmiş və bunlardan biri heç də digərini inkar etməmişdir. Xalq poeziyasının qoşma, gəraylı, bayatı kimi populyar janrları heca şeirinin poetik gözəlliklərini ortaya qoymuş və qəzəl janrında olduğu kimi, poeziyanın sonrakı inkişaf mərhələlərinə də qüvvətli təsir göstərmişdir.

**Ədəbiyyat/ *References***

1. 1. Babayev, Y. Azərbaycan ədəbiyyatı tarixi: XIII-XVIII əsrlər. – Bakı: Elm və təhsil, – 2014. – 758 s.
2. Cəfərov, M.C. Füzuli düşünür. – Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, – 1959. – 234 s.
3. Kərimov, P. XVII əsr anadilli Azərbaycan lirikası. – Bakı: Nurlan, – 2011. – 353 s.
4. Qövsi Təbrizi. Divan / nəşrə hazır. P.Kərimov. – Bakı: Nurlan, – 2006. – 449s.
5. Molla Pənah Vaqif. Əsərləri / tərt. ed. H.Araslı – Bakı: Şərq-Qərb, – 2004. – 264 s.
6. Rövşən, R. Göy üzü daş saxlamaz. –Bakı: Yazıçı, – 1987. – 157 s.
7. Səməd Vurğun. Əsərləri: [yeddi cilddə] / tərt. ed. O.Sarıvəlli və b. – Bakı: Elm, – 1985. – c.2. – 404 s.

## Образ «влюбленного» в поэзии Азербайджана

**Акрам Гасанов**
Институт рукописей имени Мухаммада Физули НАНА
Кандидат теологических наук, доцент
E-mail: garibekrem@hotmail.com

**Резюме.** Проблема свободы личности стала одной из важнейших и ведущих проблем классической азербайджанской поэзии. В лирических стихах печаль влюбленного, интимные, романтические чувства, преклонение перед красотой Возлюбленной, перед любовью как воплощением божественной силы – это видим не только у Физули, но это красная линия в лирике всех наших классических поэтов. Однако образ Ашика не может ограничиваться только воспеванием любви и привязанности. Еще один тип классического образа Влюбленного – Влюбленный-Философ. Если Увлечение подтверждает главенство человеческих чувств, то Философский тип Влюбленного демонстрирует силу разума. Мы можем увидеть это более ясно, сравнивая лирику Ашика Насими и Физули. Интересно, что большинство газелей в нашей поэзии начинаются с обращения к красоте, а красота воспевается и идеализируется. Однако отношение лирического героя к любви и красоте несколько различно в отдельных стихотворениях.

В статье рассматривается образ влюблённого в азербайджанской поэзии и его представление в различных амплуа. В ходе исследования использовались историко-сравнительный и сравнительно-аналитический методы.

**Ключевые слова:** поэт, влюбленный, образ, возлюбленная, презентация, артистизм